SOCIAL
PARADIGM
AN INTERNATIONAL JOURNAL OF SOCIAL SCIENCES

*Social Paradigm, 2021 4 (1): 18-23*

## Literary Traces of Disclosing the Negative Behaviours of the Community via Teacher Involvement

*Əsgərova Sədaqət* [1]

*The article examines the different images of teachers created in the Azerbaijani literature of the 60s in the context of tradition. During the comparisons, the chaos of the disappearance of traditions in time and space of the "garden" and the "garden season" is determined in the story of "Aquarius" (Dolcha). "Garden" in one side, according to the rules shows staying true the traditions by some people, on the other hand, shows a teacher image who breaks the values in the society. Here, especially in the character of a teacher, the separation from the own national roots, is reflected in the work as a more tragic situation. In the story - "Summer Days of the City" we see a different picture; Giyas is not far from the mission of his sacred profession, although the whole society wants to smear it with "mud" (slander), it is not far from the essence of "intelligence" and looks like a new bright circle of "traditional" teachers at a new stage. Both works focus on socio-psychological and individual-psychological aspects and clarify the psychological impact of the works.*

***Keywords:*** *Azerbaijani, "Aquarius","Summer Days of the City", teacher, socio-psychological, individual-psychological.*

***Received/Makale Geliş Tarihi: 30.12.2020***
***Accepted/Makale Kabul Tarihi: 11.02.2021***

### Giriş

Cəmiyyətin inkişafında hər bir yeni dövr ozünün ictimai-siyasi, mənəvi-əxlaqi mənzərəsini yaradır. Bu mənada müəllim obrazının üzərinə daha ağır yük düşür. Çünki, "yaradıcılıq istiqaməti ilə cəmiyyəti islahetmə və milli münasibətləri aşılama xüsusiyyətinə malik olduğu kimi müəllim modeli öz funksioner struktur tutumu ilə həm öz şəxsiyyətini, həm də cəmiyyətdə baş verən neqativləri təhlil metoduna çevirə bilir. Bu çevrilmədə Azərbaycan ədəbiyyatında bədii əsərlərdə müəllim şəxsiyyəti obrazlaşır, yəni özünəməxsus idrak daşıyıcısı kimi idarəedici modeldən əsas və aparıcı obraza çevrilir" (2, 90-95). Eyni zamanda biz, Azərbaycan ədəbiyyatında bu əsas, aparıcı ziyalı obrazını təhlil edərkən cəmiyyətdə yaşanan neqativlərin bütün təbəqələrə sirayətini mərkəzi fiqur kimi onda müşahidə edə bilirik. Bunun üçün XX əsr Azərbaycan nəsri zəngin material verir.

Bədii əsərdə müxtəlif neqativ xarakterli obraz və tipajlarla cəmiyyətin eyiblərini açmaq tənqidi realizm üçün xüsusilə xarakterikdir. Tənqidi realizm öz obrazlar

[1] Baku Slavic University, sadaqataskerova@mail.ru

qalereyası ilə təbəqələşmiş cəmiyyətin eyiblərini açdı və ədəbiyyatda bu tip obrazlardan istifadə ənənəsini intensivləşdirdi. Çox haqlı olaraq professor T.Məmməd özünün "XX əsr Azərbaycan tənqidi realist dramaturgiyası" adlı məqaləsində Roy Baskarın "elm gerçəkliyi təyin etməz, yalnız açıqlayıcı modellər ortaya qoyar" fikrini əsas tutaraq bu qənaətə gəlir ki, "gerçəkliyə soyuq ağıl və sərt münasibət nümayiş etdirən tənqidi realizm istər fəlsəfədə, istərsə də bədii yaradıcılıqda formalaşdırdığı modellərlə təkcə XX əsrin başlanğıcını yox, onun davamının da aktual yanaşmasıdır"(8, 49).

Müəllim obrazının araşdırılması istiqamətində Azərbaycan ədəbiyyatında geniş rakursdan yanaşdıqda, məsələn, biz M.Cəlilin "Danabaş kəndinin məktəbi" əsərində neqativlərin daşıyıcısı kimi müəllimHəsənovu görürük.Təbii ki, M.Cəlil tənqidi realizmin nümayəndəsi idi və janrın tələb etdiyi xüsusiyyətləri onun bütün əsərlərində görmək olur. Lakin XX əsrin bir qədər sonrakı mərhələsinə eyni obrazın araşdırılması müstəvisinə nəzər saldıqda Elçinin "Dolça" (Kələntər müəllim), Anarın "Səhərin yay günləri"(Qiyas müəllim)əsərlərində xarakter baxımından tamamilə başqalaşmış müəllim obrazı ilə rastlaşırıq. Hər iki əsər "Dolça" və "Şəhərin yay günləri" XX əsrin kommunizm illuziyalarının dağılma dövrünün məhsuludur. Bu obrazlardan biri,"Şəhərin yay günləri" əsərindəki Qiyas müəllim zaman baxımından bir qədər əvvəl qələmə alınmış S.M.Qənizadənin "Məktubati-Şeyda Şivani bəy" dilogiyasındakı Şeyda adlı müəllim obrazı ilə daha yaxından səsləşir. Elçinin "Dolça" povestində isə biz bu oxşarlıq paralelizmini görə bilmirik. XX əsrin əvvəllərində müəllim bütün şəxsiyyəti ilə, ziyalı anlamında, funksiyanı xarakterində cəmləşdirirdi. Lakin XX əsrin sonu, XXI əsrin başlanğıcında müəllim-ziyalı funksionerliyində aparıcılıq zəiflədiyi kimi, cəmiyyətdə neqativlərin əsas "günahkar"lığı da artıq onun çiyninə düşmür.Bu mərhələd nəsrimizdə yaranan müəllim obrazı da bu paylanma səviyyəsində neqativ daşıyıcılarından biridir. Azərbayacn ədəbiyyatının bir qədər əvvəlki mərhələlərinə (məs: aşıq yaradıcılığındakı ustad-müəllim tipinə) nəzər saldıqda isə yeni dövrdə həm xarakterinə, həm də cəmiyyətdəki mövqeyinə görə tamamilə başqalaşmış "ustad-müəllim"obrazı ilə qarşılaşırıq. Ənənəvi şəkildə müdriklik funksiyasının da daşıyıcısı olan ustad obrazı, müəllim XIX-XX əsrlərdə ədəbiyyatda tədricən dəyişilməyə və elastikləşməyə başlayır. Məsələ bundadır ki, XX əsrdə yazılan əsərlərə yeni kontekst və çağdaşlıq hakim kəsilir və yazıçı Anar müsahibələrinin birində həm yazıçı, həm də ümumiyyətlə ziyalı kimi çağdaşlığın mahiyyətini belə izah edir:"Fikirimcə, ədəbiyyatda çağdaşlıq çox geniş bir məfhumdur, yəni bir cümlə ilə, bir abzas ilə demək çətindir... Çağdaşlığın bir cəhəti budur ki, doğrudan da çağın, yəni zamanın tələblərinə cavab verəsən, zamanın problemləri ilə yaşayasan, zamanın ortaya çıxardığı çətin məsələlərə yazıçı kimi cavab verəsən, bilinsin ki, sən bu əsrin, bu onilliyin yazarısan, bu dövrün və ümumiyyətlə, həyatın sorularına biganə qalmırsan"(3). Anarın yaratdığı ziyalı, o cümlədən müəllim obrazları da çağdaşlıq kontekstində təqdim olunur.

Azərbaycan ədəbiyyatı bütün dövrlərdə müəllim obrazına müraciət etmişdir və müəllimin cəmiyyətdəki rolu hər zaman yüksək qiymətləndirilmişdir. Müəllimlik çox şərəfli peşədir və şərəfli olduğu qədər də mürəkkəb, məsuliyyətli vəzifədir. Hələ vaxtı ilə pedaqoq kimi fəaliyyət göstərmiş musiqişünas alim, publisist və dramaturq Ü.Hacıbəyov müəllim şəxsiyyətinin üzərinə böyük məsuliyyət qoyaraq onu belə qiymətləndirirdi. "Müəllimlik vəzifəsi çox çətin və məsuliyyətli bir vəzifədir. Hər adam

onun öhdəsindən gələ bilməz və hər bir adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xətadır. Yalnız bir təlimdən başqa uşağın tərbiyəsi dəxi müəllimin öhdəsindədir.Uşaq dəxi qabili-tərbiyə bir şey olduğuna görə, onu nə tövr tərbiyə etsən, o cür də adam çıxar. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub, evini

Bu ağır sənətin mahiyyətini anlamayan müəllim obrazına Elçinin "Dolça" povestində rast gəlirik.

Povest 1978-ci ilin iyul ayında Zuğulbada yazılmışdır. İlk baxışdan əsərdəki hadisələr bağ həyatının adi insanları ilə bağlı olsa da, burada ciddi mənəvi-etik məsələlərin yüksək bədii səviyyəyə qaldırılması diqqətdən yayınmır. Hadisələrin "bağ"da "bağ" mövsümünə bağlanması ilə müəllif mədəni kodları oyadır, ənənə istiqamətində ciddi assosasiya yaradır. "Bağ" bir tərəfdən doğma od-ocaqda ənənəyə sədaqət baxımından kökə bağlılığı göstərirsə, digər tərəfdən tarixən cəmiyyəti arxasınca aparan müəllimin öz dəyərlərinin"bağ"ındanqopmasını sərgiləyir. Burada "bağ"lılıqdan qopma, öz milli kökündən qopma daha acınacaqlıdır.Maraqlı burasıdır ki, biz hər zaman müəllimləri cəmiyyətdə bütün neqativlərin kökünü kəsməyə cəhd etmiş tip kimi düşünmüşük. Bu əsərdəki Kələntər müəllim isə öz xarakterində birbaşa qeyri-etik normaları formalaşdırmış və bunu adi həyat tərzinə çevirmiş zərərli bir tip kimi təqdim olunur.

"Kələntər müəllim Ağbabagilin kirayənişinlərinin Bəşir müəllimgilin dostu idi. Kələntər müəlim arıq və uzun idi, boğazının hulqumu çıxırdı və uzunluqda, əyri-üyrülükdə bu kişi dəvə boynuna oxşayırdı, həm də yaman qayış baldır kişi idi" (4, 276).

Müəllifin yaratdığı bu obrazın görünüşü belə insanda ikrah hissi oyadır və onun əməlləri, mühitə də təsiri də özü kimi eybəcərlik, iyrənclik formalaşdırır.

"Kələntər müəllimin bir qırmızı "Jiquli" maşını var idi və hər dəfə bu maşın Ağababagilin darvazasının qabağında dayananda, deməli, Kələntər müəllim şəhərdən nə isə bir xəbər gətirmişdi, çünki o saat maşından düşüb tez-tələsik şüşəbəndə qalxırdı, Bəşir müəllimlə, evdə olmayanda Əminə xanımla xısın-xısın pıçıldaşırdı, hərdən Adili maşına oturdub Bakıya aparırdı- ya hazırlaşdırmağa aparırdı, ya kimləsə tanış etməyə aparırdı;Ağabacı burasını dəqiq bilmirdi, amma burası tam dəqiq idi ki, uşağı instituta Kələntər müəllim düzəldirdi"(4, 280). Burada uşağın institutua "düzəlməsi", Ağabacının fikirlərə qərq olması və s. idarəedici modelə çevrilmiş "müəllimin" ətrafında ciddi, eyni zamanda zərərli sosial-psixoloji mühitin mıvcudluğundan xəbər verir. Həmin sosial-psixoloji şəraiti müəllif mənəvi-əxlaqi və tarixi müstəvidə mənalandırmağa çalışmışdır. Hər bir əsər yazıldığı tarixin məhsuludur və bu zaman kəsiyində cəmiyyətdə baş vermiş dəyişilkilər onun təmsilçilərinin, xüsusən də bəlli sosial funksiyaya malik insanların şəxsiyyətindən yan keçmir. Elçin əsərində cmiyyətin pozitivlərinin yox, neqativlərinin daşıyıcısı kimi müəllimi göstərməklə müqəddəs dəyərlərdəki eybəcər çevrilməni nümayiş etdirir. Daima insanların daxili dünyasında toxunulmaz və müqəddəs sima kimi özünə yer almış müəllim obrazı Kələntər müəllimin simasında ciddi metamorfozaya uğramışdır.Ümumiyyətlə, yaranmış vəziyyətlə əlaqədar olaraq yazıçını və oxucunu burada bir sual düşündürür:bütün əxlaq kodeksini dağıtmış Kələntər adlı müəllim obrazı yenidən etik-əxlaqi dəyərlərinə qayıda biləcəkmi, müəllim şəxsiyyətinin müqəddəsliyini

anlayıb öz etdiklərindən diksinə biləcəkmi və yaxud da öz milli kökünə qayıtsa nələr dəyişəcək, dəyişə biləcəkmi?!

Elçinin "Dolça" povestində bir çox müəlim obrazları -Fərman müəllim, Cabbar müəllim, Əlisahib müəllim, Bəşir müəllim, Kələntər müəllim var və bu əməkdaşlarının hamısından Kələntər müəllim öz alçaq hərəkətləri ilə fərqlənir.

"Şüşəbənddə isə məclis ahəstə idi.

Səftər müəllim:

İçək aləm kişilərin sağlığına!- deyirdi.Çünki belə aləm kişilər olmasaydı, bu dünya çox səfeh dünya olardı!

Əlisahib müəllim millət dərdi çəkirdi və deyirdi ki, bu millətin axırı nə olacaq, niyə millətin bu cür kişiləri azdı, o qədər azdı bu kişilər ki, çırağla axtararsan gərək və nə yaxşı iş görüb Kələntər müəllim ki, onları gətirib bura, millətin bu cür kişiləri ilə üzbəsurət oturublar.

Süfrəyə bir bax!-deyirdi.

Əlisahib müəllim, gör necə süfrədi, özüdə beş dəqiqənin içində! Əşşi, sən bir əliaçıqlığa bax, sən bir bu nemətlərə bax! Millətin simasıdı bu, millətin!" (4, 276)

Təhkiyyədəki bu metaforik qarşılaşdırmanı ümumiləşdirici keyfiyyət kimi xarakterizə edə bilərdik. Bu metafora XX əsrdə yaşanan ictimai həyatın ziddiyyətlərindən doğur. Əsərdə müəllifin səsləndirdiyi "Millətin simasıdı bu, millətin!" cümləsi həmin tarixdə yaşayan və insanlıqdan çıxmış simalara, nəzərə alsaq ki, cəmiyyətin bütün nümayəndələri müəllim şəxsiyyətinin yetişdirilməsindən pöhrələnir, o zaman bu səslənmə ən cox müəllim şəxsiyyətinə açıq-aydın vurulan təhqiramiz sillə idi.Bu povestdə bir cəhət qabarıq nəzərə çarpır.Burada təsvir olunan mühit "bağ" ozü ənənələrə bağlılıqla daha qiymətlidir amma, bədii qəhrəman mühitin təsdiq etdiyi ideallığı yaşada bilmir, həmin qiymətli bağlılıqlardan çox aşağıda durur.

Anarın "Şəhərin yay günləri" pyesində isə təsvir olunan mühit nə qədər natəmiz və estetik idealdan uzaqdırsa, bədii qəhrəman, onun təsdiq etdiyi ideal özünü yaşada, mühitin çirkinliklərindən, eybəcərliklərindən həmişə yuxarıda saxlaya bilir. Anarın bu dram əsərində də mənəvi-əxlaqi problemlərə geniş yer verilmişdir. Amma Elçinin "Dolça" əsərindəki Kələntər müəllimdən fərqli olaraq buradakı Qiyas müəllim üzvü olduğu çirkin mühitdə eybəcərliklər nə qədər çox olsa da öz əqidəsindən dönmür, müəllim və vətəndaş kimi öz üzərinə düşən öhdəlikləri gözəl anlayaraq bunlara əməl edir. "Dolça" əsərində Kələntər müəlliməənələrə sadiq qalan bir toplumda o qədərdə rahat qəbul edilməyəcək "müasirliyin" tələblərinə uyğun daxili ziddiyyətləri, çaşqınlıq və qeyri-etik büdrəmələri ilə ifadə olunmuşdursa, "Şəhərin yay günləri" dram əsərindəki Qiyas müəllim peşə sədaqəti, daxili məzmunu, ideya-əxlaqi varlığı, fərdi xarakteri və taleyinin özünəməxsusluğu ilə əks olunmuşdur. Belə obraz fikrinin genişliyi və dərinliyi, iradəsinin möhkəmliyi, hisslərinin təmizliyi, arzusunun böyüklüyü və aydınlığı ilə fərqlənmişdir.Yazıçı əsərdə müxtəlif simaları verməklə rəngarəng xarakterləri açıqlayır. Amma bu rəngarənglikdə ürək açan bahar rəngi ilə (bu yalnız Qiyas müəllimdir), qış fəslini xatırladan təbiətin boz çalarlarıda mövcuddur.

"Şəhərin yay günləri" əsərində cəmiyyətin mənəvi-əxlaqi problemlərinə geniş yer verilmişdir. Əsərin əsas qəhrəmanı olan Qiyas Zeynallının simasında əsl müəllim, ziyalı obrazı yaradılmışdır. Sənətkar əsər boyu onu müxtəlif xarakterli insanlarla qarşılaşdıraraq, müxtəlif hadisələrlə üzləşdirir, insanların iç üzünü açıb, göstərir. Bunun vasitəsilə qəhrəmanının daxili aləmindəki saflığı, əqidə bütövlüyünü, gələcəyə, insanlara olan inamını göstərir. Bir çoxlarının adi həyat şəraitlərini dəbdəbə ilə əvəz etmək üçün vicdanlarını satmalarına, onlara etibar edilən vəzifələrindən şəxsi mənafelərinə uyğun istifadə etmələrinə baxmayaraq, Qiyas müəllim yeganə oğlunun xilası naminə belə haqsızlığa yol verə bilmir. Müstəntiq Şamxalın oğluna yüksək qiymət verib öz vəzifə şərəfini itirmir və həyat yoldaşı Dilarəyə bunun səbəbini aydınlaşdıraraq onu qınayanlara ibrət dərsi verir:

"Mən bacarmadım, istədim, amma eləyə bilmədim. Mən o biri uşaqların gözlərini gördüm... Mənə elə etibarla, inamla baxırdılar ki... Mənim ömrümün çoxu gedib, azı qalıb. Amma onların axı bütün həyatları qabaqdadır. Onların etibarını qırmaq olmaz... Əgər onların inamı qırılsa, elə fikrə gəlsələr ki, dünyada ədalət, düzgünlük deyilən bir şey yoxdur və həyata da məhz bu fikirlə qədəm qoysalar onda nə gözləyir bizi, ilahi?"(1, 95).

Qiyas əsl ziyalı kimi təkcə bu günü ilə yaşamır, o, gələcək nəsillərin, cəmiyyətimizin qayğısına qalır. Sabahımızın saf mənəviyyatlı, təmiz əxlaqlı insanlar yetirməsi üçün bu gündən möhkəm zəmin hazırlayır. Heç bir mənafe naminə haqsızlığa güzəştə getməyərək, yalnız həqiqətin gücünə arxalanır.

"Qiyas təmiz, tələbkar, namuslu müəllimdir... Şamxal kimi xalqın hesabına piylənmiş, yağlanmış müstəntiqlər yaxşılıqdan, nəcabətdən, milli xarakterdən danışanda, Bəhram kimi professorlar bir çox xarici ölkələrdə olmasından, ən çox bəzək şeyləri, maqnitofon növləri ilə maraqlanıb, mətləbsiz söhbətlər açanda, Qiyas ağıllı və sərt məntiqli sözlərilə onları yandırıb-yaxır, qəzəbləndirir"(1, 347).

Qiyas yaşadığı cəmiyyətdə naqis əxlaqlı insanlarla qarşılaşsa da, namuslu adamların varlığına da inanır. Bu onun Əjdər ilə söhbətində açıq-aşkar özünü büruzə verir. Əsərdə vicdanı ləkə götürməyən obrazlardan biri də Əjdərdir. Bu mənada o, maddi anlamda varlı, mənəvi mənada isə çox kasıb və çirkin olan Ağarəfi ilə qarşılaşdırılır və Əjdər Qiyasa başına gələn bir əhvalatı danışır:

"İki-üç gün bundan qabaq simetam qurtarıb, parka gedirəm. Gördüm ki, bir kişi əlini qaldırdı, saxladım, dedim bəlkə yolumun üstüdür, apararam... Deyir, apar məni Buzovnaya, iyirmi manat verərəm sənə. Buzovnaya da bilirsən də, çetçik beş manat vurur. Yox, deyirəm, pulun-zadın mənə lazım deyil, smenam qurtarıb, evə gedirəm. Birdən nə desə yaxşıdır. Mən deyir, mütləq sənin maşınında gedəcəm, özü də sənə yüz manat pul verirəm... Otur deyirəm, getdik. İndi gedirik yolu, mən yenə öz-özümə fikir eləyirəm. Deməli, bu məndən artıq kişi çıxdı, dediyini elədi, mənim, demək, kişiliyimi, qeyrətimi pulla aldı, mən də demək razı oldum. Bəli, gedib çıxırıq Buzovnaya, çıxardır düz yüz manat, "mən kişiyəm" deyir, sözümüz sözdür, bu sənin haqqın, götürdüm pulu, Qiyas bax, balanın, balalarımın canıyçün, bu bərəkət haqqı, beşcə manat çıxdım,–çetçik dörd yetmiş vurmuşdu, doxsan beş manatı qaytardım zdaçi. Gözü kəlləsinə çıxdı: Belə

niyə, deyir? Ona görə ki, deyirəm, mən də kişiyəm, səndən də əskik kişi deyiləm, qoca olsam da"(1, 97).

Hadisələrin gedişatından məlum olur ki, yalnız öz puluna güvənən, hər şeyin, hətta insan mənəviyyatının da pula satıla biləcəyinə inanan bu adam Ağarəfidir. Lakin onun bütün cəhdləri boşa çıxır. O həm Qiyasa, həm də Əjdərə məğlub olur. Əsər prinsipial, öz şərəf və ləyaqətini daim qoruyan insanların qələbəsi ilə bitir.

"Şəhərin yay günləri" əsərinin ən uğurlu cəhəti odur ki, məzmununəsasında çox adi, müasir həyati mətləbləri qoyulur, lakin heç bir süni, qondarma, bayağı hadisə, lövhə, hərəkət, obraz gözə dəymir... hər şey həyatdakı kimi oxucuya çox adi, sadə, inandırıcı və təsirli görünür. Cəmiyyətimizdə olan naqisliklər, bəzi insanların rüşvətə, yerlibazlığa, qohumpərəstliyə qurşanıb zərərli əməlləri ilə namuslu insanların həyatında problemlər törətməsinə qarşı etiraz özünü sərgiləyir və cəmiyyətimizdə olan yarıtmazlıqları müəllif dramatik səpkidə əsərə daxil edir.

Biz eyni əsrin məhsulu olan iki əsəri və təhkiyələrdəki iki ayrı xarakterli müəllim obrazlarını müqayisəyə cəlb etdik.Hər iki əsərdə əsas mövzunu elə naqisliklərin ifşası təşkil etdi və bu gedişatda müəllim xarakterinin hansı səpkidə sərgilənməsi biruzə verildi. Əsərin qəhrəmanları iki ayrı qütbdə bir peşəni təmsil etdilər.Lakin ayrı qütblərdə eyni vəzifə ilə birləşsələr də, mənəvi-əxlaqi problemlər fonunda Qiyas müəllim daha uca şəxsiyyət, Kələntər müəllim isə tam şəkildə şəxsiyyətsizlik ortaya qoydu. Bütün canfəşanlıqlarına baxmayaraq ədalətsizliyin tərəfdarı olan qüvvələr məğlub olurlar. Onlar sadəcə düzgünlüyün yoluna çıxmağa qadirdirlər, onun yolunu kəsməyə yox. Bu ideya hər iki əsərin əsasını təşkil edir. Çünki, 90-cı illərdə xalqımızın başına gətirilən müsibətlər, çağdaş insanın daxili sarsıntıları, qarmaqarışıq hadisələr məngənəsində çalxalanan dünya qarşısında tənhalığı, cəmiyyətə yadlaşması, mənəvi-əxlaqi dəyərlərinin sarsılması, bunun nəticəsində şəxsiyyətin öncə mənən, daha sonra isə cismən məhvi kimi önəmli amillər bütövlükdə ədəbi prosesin, ədəbiyyatın başlıca mövzusuna hopa bilmişdir.

**İstinadlar**

Anar .Şəhərin yay günləri. Bakı:Yazıçı. 1992.

Asgerova S. /Azerbaycan edebiyatında öğretmen imajının sanatsal-estetik işlevi ve degişik modifikasyonlarda sunumu./ Uluslararası sosyal bilimlerde çağdaş araştırmalar kongresi.İstanbul/Türkiye. 06-08/11/2020. s.158.

Babullaoğlu S. Az-çox həqiqəti yalnız yazılı ədəbiyyat deyir. "Yeni Azərbaycan" qəzeti, 2006, 4 mart.

Çağdaş Azərbaycan povesti.Bakı, Yazıçı, 1993. 464 s.

Hacıbəyov Ü. Seçilmiş əsərləri, Bakı- 1985.səh 128-129.

Qənizadə S.M. Gəlinlər həmayili. B.. Yazıçı, 1986. 271 s.

Quliyeva A. Anar yaradıcılığında mənəvi-əxlaqi problemlər. Bakı-"MBM"- 2013. 96 səh.

Məmməd T. Ədəbiyyat müasir elmi yanaşmalar kontekstində. Bakı -2016. s. 412